S.6. 6 yanvar 2023-cü il, cümə

Xalq qəzeti

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 459** **Bakı şəhəri, 30 dekabr 2022-ci il**

***"Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1165; 2008, № 9, maddə 853; 2009, № 1, maddə 34; 2010, № 1, maddə 66; 2016, № 11, maddə 1946; 2017, № 11, maddə 2182; 2018, № 10, maddə 2162; 2019, № 12, maddə 2091; 2022, № 6, maddə 671) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin Siyahısı"-nın "Azərbaycan Respublikası ərazisində məhdud dairədə yayılmış karantin tətbiq edilən zərərli orqanizmlər (A 2 qrupu)"nun "Həşəratlar (A)" hissəsinə aşağıdakı məzmunda 16-cı bənd əlavə edilsin:

"16. Qəhvəyi mərmər bağacığı Halyomorpha halys Stal".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**